# İcma layihələri iştirakçılarının görüş sessiyası

Sentyabr ayının 20-də «Qafqaz Sport» hotelində beş günlük sessiyada İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Balakən, Zaqatala, Quba, Qusar, Xasmaz, Ağsu, Qobustan və Şamaxı rayonlarının ikinci Azərbaycan Kənd Təsərrüfatı layihəsində iştirak edən icma qurumlarının 150 nəfər nümayəndəsi iştirak etmişdir. Sessiyanın işində Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Rahib Əhmədov, İsmayıllı Rayon İcra Hakimiyyətinin şöbə müdiri Həsən Məmmədov, ikinci Azərbaycan Kənd İnvestisiya layihəsinin direktoru S. Əsgərov, Dünya Bankının əməkdaşı O. Daniel iştirak etmişlər. Sessiyanı RİH başçısının müavini Rahib Əhmədov açaraq tədbir iştirakçılarını ilk öncə rayon icra hakimiyyəti adından salamladı və sessiyanın işinə uğurlar arzuladı. O, sonra son illər Qəbələdə tikinti-quruculuq, təhsil, səhiyyə, mədəniyyət və aqrar sektorda qazanılan nailiyyətlər barədə iştirakçıları məlumatlandırdı.





Sonra ikinci Azərbaycan Kənd İnvestisiya layihəsinin direktoru Sübhan Əsgərov dedi ki, layihənin həyata keçirilməsində məqsəd ictimai yönümlü kənd infrastrukturlarına çıxışı və onlardan istifadəni artırmaq və kənd yerlərində ailələrin iqtisadi fəaliyyətini genişləndirməkdir. AzKİL-2 özünün sosial vəziyyətini yaxşılaşdırmaq üçün əmək və maliyyə yardımı göstərməyə hazır olan icmaları maliyyə və texnika yardımları ilə təmin edir. Həyata keçirilən layihələrə məktəblərin, tibb məntəqələrinin, xəstəxanaların, içməli su qurğularının, suvarma, elektrik sistemlərinin, yolların, körpülərin, icma mərkəzlərinin və s. bərpası və tikintisi daxildir. 2005—2012-ci illər ərzində AzKİL və Əlavə Maliyyələşdirmə çərçivəsində 642 tcma layihəsi həyata keçirilmişdir ki, bura 333 yol, 108 icməli su, 63 elektrik, 28 məktəb, 40 suvarma, 34 tibb məntəqəsi, 29 drenaj, 5 abadlaşdırma və 2 piyada körpüsü layihələri daxildir. Layihədə əsas məqamlara toxunan natiq qeyd etdi ki, AzKİL-2 layihələri 90 faizə qədər maliyyələşdirir. Maliyyə payının ən azı 10 faizi icmalar tərəfindən təmin edilir. İcma töhfəsinin ən azı 2 faizi nağd pulla ödənilir. Qalan 8 faiz əmək və ya material təminatı şəklində ola bilər. O, layihələrin həyata keçirilməsində bələdiyyə qurumlarının, yerli icra orqanlarının qarşısında duran vəzifələrdən də danışdı.

Qarşılıqlı görüşlər sessiyasındakı müzakirələrdə Dünya Bankının əməkdaşı O. Daniel, bacarıqların artırılması üzrə menecer Z. Qənbərova, Muğan-Salyan zonası üzrə proqram mütəxəssisi F. Eminova, Şimal-Qərb zonası üzrə proqram mütəxəssisi X. Gülmalıyev, müstəqil ekspert İ. İsgəndərov, Naxçıvan icma inkişafı işçisi A. Həsənov, İsmayıllı Rayon İcra Hakimiyyətinin məsul işçisi H. Məmmədov və şimal zonası üzrə proqram mütəxəssisi A. Kərimov çıxış etmişlər. Onlar zona üzrə proqram çərçivəsində görülən işlərinin nəticələri barədə məlumatları qarşılıqlı görüşlər sessiyasının iştirakçılarına çatdırdılar.

Tədbiri AzKİL-2-nin direktoru Sübhan Əsgərov yekunlaşdırdı.

**Aslan CƏLİLOV.**
**Fotolar S. Umuyevindir.**

# Doğma ölkəmizdə

## Ümumi daxili məhsul istehsalı artır

Bu ilin yanvar-avqust ayları ərzində ölkə üzrə istehsal edilən ümumi daxili məhsulun həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,2 faiz artmışdır. Ümumiyyətlə, ümumi daxili məhsulun həcmi 37,4 milyard manata çatmış, əhalinin hər nəfərinə düşən həcmi 3,9 faiz çoxalaraq 4035,7 manat təşkil etmişdir.

Müqayisə edilən dövrdə qeyri-neft sektorunda 10,3 faiz artım olmuş, onun ÜDM-də xüsusi çəkisi əvvəlki ildəki 51,1 faizdən 55,2 faizədək yüksəlmişdir. ÜDM-in 63,8 faizi istehsal sahələrində, o cümlədən 47,2 faizi sənayedə, 11 faizi tikintidə 5,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda istehsal olunmuş, 29,6 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

## İqtisadiyyatda çalışanların orta aylıq əməkhaqqı 412,7 manatdır

2013-cü il avqust ayının 1-i ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 490,8 min nəfər olmuşdur. Onların 894,6 min nəfəri iqtisadiyyatın dövlət bölməsində, 596,2 nəfəri isə qeyri-dövlət bölməsində fəaliyyət göstərir.

Muzdla işləyənlərin 22,8 faizi təhsil, 18,8 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 12,2 faizi sənaye, 8,8 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7 faizi tikinti, 4,9 faizi nəqliyyat və anbar təsərrüfatı sahələrində çalışırlar. Qalanlardan 3,7 faizi peşə, elmi və texniki failiyyət, 2,9 faizi kənd və meşə təsərrüfatı, balıqçılıq, 1,8 faizi informasiya və rabitə, 17,1 faizi isə digər sahələrdə məşğul olurlar.

## İlin 8 ayında əhaliyə 12,2 milyard manatlıq istehlak malları satılıb

Dövlət Statistika Komitəsinin məlumatına görə bu ilin yanvar-avqust aylarında pərakəndə ticarət bazasında əhaliyə 12,2 milyard manatlıq müxtəlif istehlak malları satılıb. Bu, keçən ilin müvafiq dövrü ilə müqayisədə 9,4 faiz çoxdur.

İstehlak mallarının 52 faizini ərzaq, 48 faizini qeyri-ərzaq malları təşkil etmişdir. Qeyri-ərzaq məhsullarının xüsusi çəkisi 4,3 faiz bəndi aşıb. Elektron pərakəndə ticarət dövriyyəsinin həcmi 2012-ci ilin eyni dövrünə nisbətən 1,7 dəfə artaraq 1,6 milyon manat təşkil edib. Sifarış verilən malların 85,5 faizi hüquqi, 14,5 faizi fiziki şəxslərin ticarət şəbəkələrindən alınmışdır.

## Bakıda ən böyük moda gecəsi təşkil edilmişdir

Sentyabrın 13-də «Nargis» jurnalının və Azərbaycanın premium səviyyəli kinoteatrı «28 Çinema»nın birgə təşkilatçılığı ilə ilin ən böyük moda gecəsi keçirilmişdir.

Moda gecəsində «Vorosha» brendinin və «Jan» atelyesinin geyimləri nümayiş etdirilmişdir. Geyimlər qırmızı printlər ilə ağqara işıq qammasında yaradılmışdır. Kolleksiyanın əsas printlərinin sujeti Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə gerçəkləşən «Bakıya uçuş» (Fıu to Baku») sərgi və ekspozisiyalarında təqdim olunmuş rəsmlər əsasında yaradılmışdır. Eyni zamanda, geyimləri nümayiş etdirən modellərin üzərində «Daprima» şirkətinin zinət əşyaları olmuşdur.

Qonaqlar arasında ölkənin bir çox məşhur siması, mədəniyyət və incəsənət xadimləri, iri şirkətlərin rəhbərləri və ictimai xadimləri olmuşlar.

**Nadir ATAKİŞİYEV.**

# Uğurlu makroiqtisadi göstəricilər

Dövlət Statistika Komitəsi bu ilin yanvar-avqust ayları üzrə ölkənin sosial-iqtisadi inkişafını əks etdirən makroiqtisadi göstəriciləri açıqlamışdır. İlin 8 ayında ölkədə ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,2 faiz (1,9 milyard manatlıq) çox əlavə dəyər istehsal olunmuşdur. İstehsalın ümumi həcmi 37,4 milyard manata çatmışdır.

Ümumi daxili məhsulun (ÜDM) 63,8 faizi məhsul istehsalında, o cümlədən 42,7 faizi sənaye müəssisələrində, 11 faizi inşaat kompleksində, 5,6 faizi aqrar bölmədə istehsal olunmuşdur. Xidmət sahələrində yaradılan dəyərin 5,7 faizi nəqliyyatın, 9,4 faizi ticarət, pullu xidmət və ictimai iaşənin, 1,7 faizi rabitənin, 12,8 faizi digər sahələrin payına düşür.

Qeyd olunan dövrun ən önəmli faktlarından biri qeyri-neft sektorunda məhsul istehsalının 10,3 faiz artması olmuşdur.Ümumiyyətlə, ilin əvvəlindən ötən müddət ərzində 22,5 milyard manatlıq sənaye məhsulları istehsal olunmuşdur. Həmçinin çoxsaylı müxtəlif təyinatlı müəssisələr, bir çox istiqamətdə magistral yollar, körpülər, yolayrıcıları tikilib istifadəyə verilmişdir.

Ölkənin iqtisadi cəhətdən inkişafı əhalinin sosial durumunun yaxşılaşmasına təsirsiz ötüşə bilməz. Əvvəlki illərdə əməkhaqqının və əhalinin pul gəlirlərinin artımındakı dinamika ilin ötən 8 ayında da davam etmişdir. Belə ki, yanvar-avqust aylarında əhalinin hər nəfərinə düşən gəlirləri ötən ilin müvafiq dövrünə görə 6 faiz artaraq 2376,2 manata çatmışdır. Həmin müddət ərzində orta aylıq əməkhaqqı 412,7 manat olmuşdur ki, bu da 7 faizə yaxın artım deməkdir.

Bu artım o vaxt etibarlı olur ki, ölkədə infilyasiyanın səviyyəsi onu üstələmir. Azərbaycanda tnfilyasiyanın səviyyəsiilə əməkhaqlarının arasında əhalinin xeyrinə xeyli fərq yaranmışdır. Ölkədə infilyasiyanın səviyyəsi isə bu il dünyada ən aşağı səviyyədə göstəricisi olan ölkələr sırasında dayanır.